Ədalət .- 2025.- 16 may(№18).- S.2.

# KƏSSƏ HƏR KİM TÖKÜLƏN QAN İZİNİ QURTARAN DAHİ ODUR YER ÜZÜNÜ

*İki yüz ildən çoxdur Azərbaycanın axan qan izini Möhtərəm Prezident, Ali Baş Komandan İlham Əliyev kəsdi və Azərbaycanın qanlı-qadalı günlərini birdəfəlik arxada qoydu. Darmadağın olmuş, xarabalığa çevrilmiş Qarabağa yeni həyat, ruh verdi. İndi sevincdən Qarabağın daşları da çiçəkləyib.*

*Srağagün, yəni mayın 10-da Ağdamdaydıq. Çöl, çəmən hamısı qıpqırmızı lalələrlə xonça toxumuşdu. Mənə elə gəldi ki, şəhidlərin qanları lalə kimi çiçəkləyib.*

*Ağdama tez-tez, bəzən ayda iki-üç dəfə gedirəm. Amma bu dəfəki səfər tamamilə fərqli idi. Bu səfər tarixi bir günə düşmüşdü.*



*Muğamın beşiyi olan Ağdam şəhərində möhtəşəm Muğam Mərkəzinin açılışıydı. Muğam ustalarının göstərdiyi məharət və şəhərdə ucalan muğam səsi bütün dünyaya yayıldı.*

*Yadınızdadırsa, Paşinyanın arvadı Anna televizorda yekəyekə demişdi ki, Mehriban xanım muğama qulaq asmaq istəyirsə dəvət edərik, gəlib Qarabağda qulaq asar.*

*Artıq beşinci ildir ki, Mehriban xanım Əliyeva Qarabağda muğama qulaq asır, bəs, sən hardasan Anna, əlinə avtomat götürmüşdün, necə oldu avtomat?*

*4-cü sinif şagirdinin oxuduğu muğam, vurduğu zəngulələr Möhtərəm Prezidenti, eləcə də Mehriban xanımı kövrəltdi. Yəqin sən də bu səsi eşidib hirsindən-hikkəndən ağlamısan.*

*Bu ona görə tarixi bir gün idi ki, Möhtərəm Prezident İlham Əliyev Ulu Öndər Heydər Əliyevin doğum gününü yenidən tikdiyi, 100-150 minlik şəhərə çevriləcək Ağdamda keçirtdi. Camaatla görüşdü, camaatı dinlədi, o balaca körpələri qucaqlayıb öpdü. Sevincini bütün ağdamlılarla bölüşdü. Ağdamlılar da öz sevinclərini Möhtərəm Prezident İlham Əliyevlə və Mehriban xanımla bölüşdü. Və ağdamlılar böyük bir fəxarət hissi keçirtdilər.*

*Allah qan izini kəsən İlham Əliyevi qorusun!*

*Allah muğamı və mədəniyyətimizi ölməyə qoymayan Mehriban xanımı qorusun!*

*Allah Azərbaycanımızı qorusun!*

**Aqil ABBAS**